# CPC-də tarixi günlər qeyd edilib





**"Caspian Pipe Coatings" (CPC) MMC-də ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü və 9 May - Qələbə Gününə həsr edilmiş tədbir keçirildi.**

Ənənəvi olaraq tədbir səhər saatlarında CPC ərazisində imeciliyin keçirilməsi ilə başladı. Müəssisənin əməkdaşları ərazideki ağaclara, yaşıllıq zolaqlarında olan bitkilərə qulluq edərək ümumi ərazidə abadlıq işləri aparmışdılar.

Günün ikinci yarısında ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü və İkinci Dünya müharibəsində faşizm üzərində Qələbə gününə həsr edilmiş xatirə iclası keçirildi. İclasda CPC heyəti ilə birlikdə "Şahdəniz-2" layihəsi çərçivəsində işlərin icrasında tərəfdaş olan "ShawCor" şirkətinin nümayəndələri də iştirak edirdilər. İclasın açılışında CPC-nin direktoru Azər N.İsayev Azərbaycan xalqının yaddaşında önəmli yer tutmuş tarixi hadisələr haqqında danışdı.

Daha sonra CPC əməkdaşları tərəfindən hazırlanmış çıxış və videoteqdimatlar nümayiş olundu. Çıxışlar zamanı qeyd edildi ki, ulu öndər Heydər Əliyev daim tərəqqisi üçün çalışdığı, zəngin mədəniyyəti, böyük tarixi keçmişi ilə həmişə qürur duyduğu və gələcək nəsillərinin taleyi üçün düşündüyü doğma yurdu Azərbaycanı bir dövlət kimi zamanın ağır və sərt sınaqlarından çıxarmışdır.

Azərbaycanın İkinci Dünya müharibəsi dövründə faşizmlə mübarizəsi, igidlik nümunələri, ümumi qələbə üçün cəbhəyə verdiyi töhfəsi haqqında söhbət açan natiqlər, Azərbaycanın dünyada igidliyi ilə tanınan qəhrəman oğul və qızlarından, zəhmətkeş insanlarından və eləcə də dövlətimizin İkinci Dünya müharibəsi veteranlarına göstərdiyi qayğıdan danışdılar.

Qeyd edək ki, "Şahdəniz-2" layihəsi çərçivəsində tərəfdaş şirkətlərdə çalışan əcnəbi vətəndaşların Azərbaycanın tarixi və dahi şəxsiyyətləri haqqında məlumatları asanlıqla qavramaları məqsədilə videoteqdimatlar CPC əməkdaşları tərəfindən ingilis dilində hazırlanmışdı.

İclasdan sonra iştirakçılar "Caspian Pipe Coatings" MMC-nin baş inzibati binasının qarşısında olan yaşıllıq zolaqlarında ağac və güllər əkdilər.

**Zamin Məmmədov,**
***"İki sahil"***